Naxçıvan Müəllimlər İnstitutu. Elmi əsərlər, 2025, № 1-2, s. 32-35
Nakhchivan Teachers Institute. Scientific Works, 2025, № 1-2, p. 32-35
Нахчыванский институт учителей. Научные труды, 2025, № 1-2, с. 32-35

UOT: 37.01:001.891
https://doi.org/10.30546/670832.2025.01.1092

# Pedaqoji eksperimentin hazırlanması və aparılması mərhələlərində tədqiqatçının fəaliyyətinin məzmununa dair

**Müəllif(lər):**

**Ləman Əliyeva**
Naxçıvan Müəllimlər İnstitutu
Magistrant
**E-poçt:** lemaneliyeva2020@gmail.com

**Açar sözlər:** tədqiqat, eksperiment, şagird, müəllim, təcrübə, keyfiyyət

**Annotasiya.** Bu işin aktuallığı dedikdə tədqiqatçıların pedaqoji eksperiment vasitəsilə müasir təhsil tələblərinə cavab verən innovativ metodları tətbiq edərək, tədris prosesindəki çatışmazlıqları aşkar etmələridir. Pedagoji eksperiment təhsil sahəsində yenilikləri test etməklə yanaşı, tədris metodlarının və yanaşmalarının təkmilləşdirilməsinə də böyük töhfə verir. Tədqiqatçı hər bir mərhələdə diqqətli, planlı və məqsədyönlü olmalı, topladığı məlumatları obyektiv şəkildə təhlil etməlidir. Eksperimentin düzgün və təsirli olması üçün, tədqiqatçı əvvəlcədən planlaşdırılmış prosedurlara ciddi riayət etməli, həmçinin iştirakçıların şəraitini və motivasiyasını nəzərə almalıdır. Bu mərhələdə hər hansı bir dəyişiklik və ya müdaxilə olmamalıdır, çünki eksperimentin nəticələri, tədqiqatçının məqsədinə uyğun şəkildə toplanmış məlumatlara əsaslanmalıdır. Tədqiqatın aparılmasında əsas məqsəd ümumtəhsil məktəblərində pedaqoji eksperimentin rolunu və hər bir mərhələdə tədqiqatçının fəaliyyətini araşdırmaqdan ibarətdir. Pedaqoji eksperimentin hazırlanması və aparılması mərhələlərini araşdırmaq üçün müşahidə, sorğu və müqayisəli metodlardan istifadə edilmişdir. Yekun olaraq, sorğuların təhlili nətcəsində pedaqoji eksperiment müəllimlərin, şagirdlərin və təhsil müəssisələrinin inkişafına yönəlik strateji qərarların qəbul edilməsində böyük rol oynadığı nəticəsinə gəlinmişdir.

## The content of the researcher's activity in the stages of preparation and implementation of the pedagogical experiment

**Author(s):**

**Laman Aliyeva**
Nakhchivan Teachers Institute
Master student
**E-mail:** lemaneliyeva2020@gmail.com

**Key words:** research, experiment, student, teacher, experience, quality

**Abstract.** The actuality of this work is that, researchers through pedagogical experiments apply innovative methods that meet modern educational requirements and identify shortages in the teaching process. Pedagogical experiment in addition testing innovations in the field of education, also makes a great contribution to the improvement of teaching methods and approaches. The researcher must be careful, planned and purposeful at each stage and must objectively analyze the data he collects. For having correct and effective experiment the researcher must strictly follow the procedures planned beforehand, as well as take into account the condition and motivations of participants. There should be no changes or interventions at this stage, because the results of the experiment must be based on the data collected in accordance with the researcher's purpose. The main purpose of conducting the research is to investigate the role of pedagogical experiments at secondary schools and the activity of researcher at each stage. Observation, survey and comparative methods were used to investigate the stages for preparing and implementing pedagogical experiments. Finally, as a result of carried analysis of the surveys, it was concluded that, pedagogical experiments play a great role in making strategic decisions aimed for the development of teachers, students and educational institutions.

## К содержанию деятельности исследователя на этапах разработки и проведения педагогического эксперимента

**Автор(ы):**

**Ляман Алиева**
Нахчыванский институт учителей
Магистрант
**Э-почта:** lemaneliyeva2020@gmail.com

**Ключевые слова:** исследование, эксперимент, ученик, учитель, опыт, качество

**Аннотация.** Актуальность данной работы заключается в том, что исследователи посредством педагогического эксперимента выявляют недостатки в процессе обучения, применяя инновационные методы, отвечающие современным образовательным требованиям. Педагогический эксперимент не только проверяет инновации в сфере образования, но и вносит большой вклад в совершенствование методов и подходов к обучению. Исследователь должен быть внимательным, спланированным и целенаправленным на каждом этапе, объективно анализируя собранную информацию. Чтобы эксперимент был правильным и эффективным, исследователь должен строго придерживаться заранее запланированных процедур, а также учитывать обстоятельства и мотивацию участников. На этом этапе не должно быть никаких изменений или вмешательства, поскольку результаты эксперимента должны основываться на данных, собранных в соответствии с целью исследователя. Основной целью проведения исследования является изучение роли педагогического эксперимента в общеобразовательных школах и деятельности исследователя на каждом этапе. Для исследования этапов подготовки и проведения педагогического эксперимента использовались методы наблюдения, опроса и сравнения. В заключение на основе анализа опросов сделан вывод о том, что педагогический эксперимент играет большую роль в принятии стратегических решений, направленных на развитие педагогов, учащихся и учебных заведений.

**Giriş.** Pedaqoji eksperiment fərziyyənin əsasını təşkil edən fikir və ya ideyaların səmərəliliyini təcrübə vasitəsilə yoxlayaraq təsdiqləməyə yönəlmiş bir yanaşmadır. Bu metod sayəsində elmi nəticələr əldə etmək mümkündür [10, s.57]. Pedaqoji eksperiment 20-ci əsrin sonlarının kəşfi deyil. Yaşı bəşəriyyətin özünün yaşına yaxın olsa da toplanmış təcrübə və bilikləri gənc nəslə ötürmək haqqında düşünsə də, tədris və tərbiyədə təcrübə sənəti onun təşkili və həyata keçirilməsi üsulları haqqında peşəkar bilik tələb edir. Buna görə də təcrübəyə təhsil sahəsində başqa bir moda kimi yanaşmaq təhlükəlidir. Eksperimental müəllimlər öz fikirlərini sınaqdan keçirməzdən əvvəl ilk növbədə eksperimental fəaliyyətin mənfi nəticələri barədə sual qaldırmalı və ap arılan eksperimentdən zərəri neytrallaşdıracaq kompensasiya mexanizmləri üzərində düşünməlidirlər [6].

Tədqiqatın məqsədinə əsasən pedaqoji eksperiment müxtəlif növlərə bölünür. İlk növ olan müəyyənedici eksperiment tədqiqatın başlanğıc mərhələsində aparılır və bu mərhələdə məktəb təcrübəsindəki mövcud vəziyyətin öyrənilməsi məqsədi ilə həyata keçirilir. Daha sonra yaradıcı-dəyişdirici eksperiment başlayır, burada tədqiqatçı tərəfindən fərziyyə və öyrənilən problemin həlli üçün nəzəri əsaslar və konkret metodik yollar işlənib hazırlanır. Tədqiqatın sonrakı mərhələsi isə yoxlayıcı eksperiment şəklində aparılır. Bu mərhələdə sınaqdan keçirilmiş metodikanın başqa məktəblərdə və müəllimlərin işində tətbiqi yoxlanılır və əldə olunan nəticələrin düzgünlüyü bir daha dəqiqləşdirilir [3].

Pedaqoji eksperiment hər hansı bir pedaqoji ideyanın, hipotezin xüsusi hazırlanmış və təşkil edilmiş şəraitdə öyrənilməsi və yoxlanılmasıdır. Bu prosesin əsas məqsədi hadisələr arasındakı qarşılıqlı əlaqələri və pedaqoji ideyaların effektivliyini araşdırmaq və ortaya çıxarmaqdır.

Pedaqoji eksperimentin əsas mərhələlərinə planlaşdırma və yekunlaşdırma daxildir. Planlaşdırma mərhələsində tədqiqatçı eksperimentin məqsədini, metodlarını və gözlənilən nəticələri müəyyənləşdirir, iştirakçıları seçir və eksperimentin keçirilməsi üçün şərait hazırlayır. Yekunlaşdırma mərhələsində isə əldə olunan nəticələr təhlil edilir, ümumiləşdirmələr və nəticələr çıxarılır və eksperimentin effektivliyi qiymətləndirilir [7].

Pedaqoji eksperimentin kompleks tədqiqat metodu kimi mahiyyəti ondan ibarətdir ki, o, tədqiq olunan hadisələri müəyyən şəraitdə yerləşdirməyə, sistemli şəkildə təşkil olunmuş situasiyalar yaratmağa, eksperimental təsirlərlə onların obyektiv nəticələri arasında təsadüfi olmayan əlaqənin qurulduğu faktları müəyyən etməyə imkan verir [5].

Pedaqogika öz obyektini öyrənmək üçün pedaqoji müsahibə, pedaqoji müşahidə və pedaqoji eksperiment və s. bu kimi tədqiqat metodlarından istifadə edir ki, digər elmlərdə həmin bu metodlar özünü pedaqogikada olduğu kimi göstərməsin. [9, s.18].

Ümumiyyətlə, pedaqoji eksperimentin hazırlanması və aparılmasının aşağıdakı mərhələlərini vurğulamaq məqsədəuyğundur:

1. Diaqnostik mərhələ – problemin təhlili, problem üzrə tədris prosesinin vəziyyətinin təhlili, bəzi dəyişikliklərin, yeni metodların, texnologiyaların, strukturların, yeni funksionallığın köməyi ilə mümkün qədər tez aradan qaldırılmalı olan ziddiyyətlərin müəyyən edilməsi və formalaşdırılması. Başqa sözlə desək, problemi müəyyən etmək və onun aktuallığını əsaslandırmaq.

2. Proqnostik mərhələ - məqsədin qoyulması, onun tapşırıqlar sisteminə layihələndirilməsi, yeni təcrübənin modelinin qurulması, fərziyyənin formalaşdırılması, gözlənilən nəticələrin proqnozlaşdırılması, mənfi nəticələr zamanı kompensasiya mexanizmləri üzərində düşünmək. Başqa sözlə desək, ətraflı eksperimental proqramın hazırlanması.

3. Təşkilati mərhələ - eksperimental işin struktur modelinin qurulması və onun rəsmiləşdirilməsi. Bu struktur model ən çox eksperimental proqramda rəsmiləşdirilir.

4. Praktiki mərhələ - ilkin dəqiqləşdirmə bölmələrinin aparılması, yeni təcrübənin həyata keçirilməsi, prosesin monitorinqi, aralıq (cari) nəticələr, sınaqdan keçirilmiş təcrübənin tənzimlənməsi, nəzarət bölmələri.

Pedaqoji eksperimentin öyrədici adlanan mərhələsi də vardır ki, o da 2009 və 2010-cu illərə təsadüf edir. Burada interaktiv təlimin prinsiplərinin istifadəsiylə 1-ci siniflərin riyaziyyat təlimində simmetriya, həndəsi fiqurlar habelə kəmiyyətlərin öyrədilməsində fərqli-fərqli dəqiq mövzulara əsasən öyrədici eksperiment keçiril-

mişdir [1, s.24].

Eksperimentin uğurlu nəticələr verməsi üçün onu digər metodlarla (müşahidə, müsahibə, anket sorğusu və s.) əlaqələndirmək vacibdir [4]. Pedaqoji eksperiment mürəkkəb xarakterli bir üsuldur çünki o, müşahidə üsullarının, söhbətlərin, müsahibələrin, sorğuların, diaqnostik işlərin, xüsusi vəziyyətlərin yaradılmasının və s. birgə istifadəni nəzərdə tutur.

Pedaqoji eksperimentdən istifadə edərkən tədqiqatçı birinci növbədə öyrənmək istədiyi məsələnin daha əlçatan olmasından ötrü tələb edilən şəraiti özü yaradır; sonra hansı vəziyyətdə daha yaxşı nəticə almağı öyrənmək məqsədi ilə prosesin gedişini öz istədiyi vaxt dəyişdirir; sonra isə əldə etdiyi məlumatın dəqiqlik dərəcəsini müəyyənləşdirmək üçün təcrübəni təkrar-təkrar edir; sonda öyrəndiyi pedaqoji prosesi daha dəqiq və hərtərəfli qeyd etmək üçün lazımi texniki avadanlıqları da hazırlayır [8, s.29].

Material və metodlar. Mövzuya uyğun ədəbiyyatlar təhlil edilmişdir. Rəna Bağırova qeyd edir ki, pedaqoji eksperimentin əsas məqsədi təhsil prosesinin daha təsirli və inkişaf etdirici olmasını təmin etməkdir. Rüfət Hüseynzadə, Zəhra Əzizova və digərləri isə pedaqoji eksperimentin tədris proqramlarının, təlim strategiyalarının və təhsil texnologiyalarının tətbiqinin təsirini öyrənmək üçün əhəmiyyətli bir metod olduğunu vurğulayırlar. Eksperimentin nəticələri təhsil sahəsində müvafiq dəyişikliklərə və yeniliklərə yönəlmiş tövsiyələr verir.

Bu metodlar tədqiqatın məqsədinə, mövzusuna və kontekstinə uyğun olaraq seçilmişdir.

1. Müşahidə metodu - Eksperimentin aparılması zamanı iştirakçıların davranışlarını, tədris metodlarını və mühitini müşahidə edərək praktiki təcrübələri analiz edilmişdir.

2. Sorğu metodu - Müəllimlər, şagirdlər və digər iştirakçılar arasında sorğular keçirərək, onların fikirlərini, təcrübələrini və eksperimentə dair baxışları toplanılmışdır.

3. Müqayisəli araşdırma - Fərqli tədris metodları, proqramlar və yanaşmalar arasında müqayisələr apararaq onların səmərəliliyi qiymətləndirilmişdir.

Nəticə və müzakirələr. Beləliklə, pedaqoji eksperiment müasir alətlər və imkanlar nəzərə alınmaqla təhsil sahəsində problemlərin mövcudluğunu bacarıqla nümayiş etdirməyə və onların həlli üçün tədbirlər planını tərtib etməyə imkan verən xüsusi tədbirlər kompleksidir. O, təhsil prosesinin və təhsil proqramlarının əsaslı islahatına, təhsilin keyfiyyətinin yüksəldilməsinə və müəllimlərin əməyinin asanlaşdırılmasına kömək edir. Məhz pedaqoji eksperimentin nəticələri təhsil sahəsində dissertasiyaların, monoqrafiyaların və digər tədqiqatların əsasına çevrilir.

Pedaqogika üzrə elmlər doktoru, professor Abbasov Akif - Pedaqoji eksperimentdən mövzusuna uyğun olaraq istifadə etmişdir. "Ailə pedaqogikasının tədqiqat metodları" adlı məqaləsində pedaqoji eksperimentdən belə istifadə edib ki, ya tədqiqatçı öyrənilən prosesə fəal müdaxilə edir, ya da hadisəni özü yaradır. Müəllif hadisə haqqında düşünür ki, belə halda proses qüvvətlənə yaxud aradan qaldırıla bilər [11].

Yekun nəticə. Apardığımız tədqiqat işinin nəticələri göstərir ki, özünütəhsil və şagird səriştəsinin formalaşdırılmasına hazırlığın aşağıda qeyd olunan mərhələləri içərisində çox mühüm zəruri həlqə şagirdlərin özünütəhsil hazırlığı mərhələsidir. Bu mərhələ aşağıdakı məzmun istiqamətinə malikdir:

a) ənənəvi (öz-özünə təhsillənmə, öyrənmə);

b) akademik özünütəhsil (proses müəllim tərəfindən yönəldilir);

c) özünütəhsil kursları (xüsusi və seçmə) və giriş məlumatları.

Araşdırma və təhlillərimizə görə şagirdlərin özünütəhsil səriştəsinin formalaşdırılmasının bu hər üç istiqaməti üzrə orta ümumtəhsil məktəblərində bilik, bacarıq və vərdişlərin verilməsi bu və ya digər dərəcədə tədris və təlim işlərinə əsaslanmalıdır. Bundan çıxış edərək tədqiqatların təhlili zamanı özünütəhsil bacarıq və vərdişlərinin qrup halında təsnifatında müxtəliflik olsa da, fikrimizcə, onları aşağıdakı qruplarda cəmləşdirmək daha məqsədəuyğundur:

a) zehni (intellektual) bacarıq və vərdişlər (plan tuta bilmək bacarığı, biliyi yeni şəraitdə tətbiq etmək bacarıqları, sürətli yazı və oxu vərdişləri və s.);

b) əmək bacarıq və vərdişləri (çertyoj əsasında hərəkətləri yerinə yetirmək bacarığı, üzmək bacarığı, internetdən səmərəli istifadə etmək bacarığı və s.).

**Ədəbiyyat**

1. Bağırova, R. Pedaqogika üzrə fəlsəfə doktoru elmi dərəcəsi almaq üçün təqdim edilmiş dissertasiyanın avtoreferatı / – Bakı: Qeyrət, 2013. – 24 s.
2. Əliyev, H. Təhsil millətin gələcəyidir / H.Əliyev. – Bakı: Təhsil, – 2002. – 192 s.
3. Hüseynzadə, R. Pedaqogika / R.Hüseynzadə, Z.Əzizova, H.Əliyev, Ü.Məhəmmədi. dərslik. – Bakı: Mütərcim, – 2021. – 488 s.
4. İbrahimov, F. Pedaqogika / F.İbrahimov, R. Hüseynzadə. 2 clddə. I cild. – Bakı: Mütərcim, – 2012. – 706 s.
5. Məmmədov, K. Elmi-tədqiqat işlərinin metodikası / K.Məmmədov. dərs vəsaiti. – Bakı: Mütərcim, – 2013. – 104 s.
6. https://aztehsil.com/pedoqojitcrb/695-pedaqoji-eksperiment.html
7. https://kayzen.az/blog/pedaqoq/401/pedaqoji-t%C9%99dqiqat-v%C9%99-onun-metodlar%C4%B1.html
8. https://studfile.net/preview/9783203/page:4/
9. https://www.booksite.ru/fulltext/kos/hmar/ped/1.htm
10. https://www.pa.edu.az/library/9/56/679_ped_ve_psix_muhazireler_toplusu.pdf
11. http://www.anl.az/down/meqale/elm_eserler_tehsilprobins/2016/02/01(meqale).pdf

*Məqalə pedaqogika üzrə elmlər doktoru, dosent Kamal Camalov tərəfindən təqdim olunmuşdur.*

İlkin daxilolma – 17.01.2025, son daxilolma – 07.02.2025, qəbulolunma – 14.03.2025